**UOT: 069**
**ORCID: 0009-0003-6165-5297**
**https://doi.org/10.52094/GIMP4049**

**Ayşən Amanova Kamal qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**aysnkamal@gmail.com**

# AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNDƏ SƏRGİLƏNƏN TARİXİ NÜMUNƏLƏR

**Xülasə:** Azərbaycan Milli İncəsənət Muzeyi ölkənin zəngin mədəni irsini qoruyan və nümayiş etdirən ən mühüm mədəniyyət müəssisələrindən biridir. Muzey Azərbaycan incəsənətinin müxtəlif dövrlərini və janrlarını əhatə edən geniş kolleksiyası ilə milli mədəniyyətin formalaşmasına, qorunmasına və təbliğinə böyük töhfə verir. Burada qorunan eksponatlar yalnız estetik dəyər daşımır, həm də ölkənin tarixi, mədəni və sosial inkişafının izlərini əks etdirir. Muzey həm yerli, həm də beynəlxalq səviyyədə Azərbaycan incəsənətinin təbliği və tanıdılması üçün vacib platformadır.

Bu səbəbdən, bir çox tarixi eksponatlarımız, xüsusilə tekstil, xalça və zərgərlik nümunələri, ölkənin maddi-mədəni irsinin əvəzsiz hissəsini təşkil edən və mədəni irsimizin əyani göstəricisi olan tarixi əhəmiyyətə malik tapıntılar məhz Milli İncəsənət Muzeyində saxlanılır. Bu eksponatlar vasitəsilə keçmişin sənətkarlıq ənənələri, texniki ustalıq və estetik baxış açıları bu günümüzə çatdırılır. Hər bir əşya dövrünün dini, sosial və mədəni həyatını, eləcə də regional xüsusiyyətləri əks etdirir. Tarixi eksponatların qorunması və təhlili milli kimliyin möhkəmləndirilməsində, həmçinin dünya mədəniyyətləri arasında Azərbaycan sənətinin yerinin müəyyən edilməsində mühüm rol oynayır. Bu nümunələr həm elm, həm də təhsil sahəsində dəyərli mənbədir.

**Açar sözlər:** Azərbaycan Milli İncəsənət Muzeyi, tarixi eksponatlar, sərgilənən tarixi nümunələr, dekorativ-tətbiqi sənət nümunələri, maddi-mədəni irs, tekstil nümunələri, xalça sənəti, zərgərlik əsərləri, Azərbaycan incəsənəti, mədəniyyətin qorunması, etnoqrafik nümunələr, muzey kolleksiyası, milli geyim.

Bəlli həqiqətdir ki, Azərbaycan Milli İncəsənət Muzeyi milli mədəniyyətimizin qorunması və təbliği sahəsində əvəzsiz rol oynayan bir mədəniyyət ocağıdır. Tarixin dərin qatlarından gələn əsərlər, xalqımızın zəngin

sənətkarlıq ənənələrini özündə əks etdirən nümunələr, məhz burada mühafizə edilir. Burada qorunan tekstil, xalça və zərgərlik nümunələri, o cümlədən müxtəlif sənət əsərləri, milli kimliyimizin, mənəvi dəyərlərimizin daşıyıcılarıdır. Bu əzəli incilər qədim sənətkarların zəhməti, duyğusu və estetik baxışlarının unikal ifadəsidir.

Bu gün Azərbaycan mədəniyyəti, milli dəyərlərimizi qoruyub yaşatmağı və gələcək nəsillərə ötürməyi ali məqsəd hesab edir. Muzeydəki tarixi nümunələr də məhz bu mənəvi irsin canlı şahidi, zamanla yaşanmış estetik və texniki təcrübənin bədii dilidir. Onlar Azərbaycan sənətinin qədim köklərinə sadiq qalaraq, müasir dünya mədəniyyətləri ilə dialoqa açılan bir körpü rolunu oynamaqdadır.

Bu məqalədə Azərbaycan Milli İncəsənət Muzeyində sərgilənən seçilmiş dekorativ-tətbiqi sənət nümunələrinin mənşəyi, sənətkarlıq texnikaları və mədəni əhəmiyyəti araşdırılacaq, onların milli və beynəlxalq kontekstdə tutduğu mövqeyə işıq tutulacaqdır. Məqsədimiz – bu zəngin irsin çağdaş sənət və mədəniyyət mühitindəki yerini aydınlaşdırmaq, həmçinin Azərbaycan incəsənətinin mahiyyətini qlobal müstəvidə araşdırmaqdır.

Arxeoloji qazıntılar zamanı tapılan bəzi eksponatlar onu göstərir ki, Azərbaycanda dekorativ-tətbiqi sənət nümunələrinin tarixi kökləri, demək olar ki, bizim eramızdan əvvəl VI-IV minilliklərə gedib çıxır.

Xüsusən, bizim eramızın XVI-XVII əsrlərində saray emalatxanalarında toxunan zərli parçalar və nəbati ornamentlərlə bəzədilmiş tekstil nümunələri, Azərbaycan sənətkarlığının zirvəsi hesab edilirdi [1].

Qədim Azərbaycan torpaqlarında inkişaf edən, dekorativ-tətbiqi sənət nümunələri arasında toxuculuq nümunələrinə, yəni xalçalara da rast gəlinirdi.

Məsələn, Antik dövr tarixçiləri Herodot, Ksenofont və Klavdiy Elian da Azərbaycanın xalçaçılıq ənənələri haqqında məlumat vermişlər. Həmin məlumatlarda, Sasanilər dövründə (III–VII əsrlər) ipək, qızıl və gümüş saplardan toxunan xalçaların geniş yayıldığını müşahidə etmək mümkün idi [2].

Onu da qeyd edək ki, VII əsrdə yaşamış alban salnaməçisi Musa Kalankatlı öz yazılarında Azərbaycanın toxuculuq sənətinin müəyyən detallarından bəhs edirdi [3].

Dekorativ-tətbiqi sənət nümunələrinin qorunmasında, sözsüz ki, milli muzeylərimizin əvəzsiz rolu var. Bu mənada bir çox muzeylərimizdə müxtəlif xalçaların, keramikaların, metal işləri, taxta oyma, zərgərlik məmulatları və digər əl işlərinin qorunması, xalqın tarixi, mədəni irsi və estetik dünyagörüşünün əyani ifadəsidir. Bu baxımdan, muzeylərin əsas vəzifələri

arasında həmin nümunələrin qorunması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması kimi önəmli prinsiplərin mövcudluğu danılmaz faktlardandır. Məsələn, bu mənada Azərbaycan Milli İncəsənət Muzeyinin mövcudluğu xüsusi əhəmiyyətə malikdir.

Muzeyin tarixi inkişafı 1936-cı ildən başlanır. Həmin illərin axarında incəsənət bölməsi Azərbaycan Dövlət Muzeyindən ayrılaraq, Xalq Komissarları Sovetinin qərarı ilə öz yolunu tapmış və ayrıca bir sənət məkanı kimi formalaşmışdır.

Həmin dövrlər ərzində fəaliyyət göstərən muzey, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beşinci mərtəbəsinə köçürüldü [4, səh 48].

Muzeyin ilk nümunələri isə, kimisi səyyahların izləri ilə daşınmış, kimisi xalqın könlündən qopan yadigarlar kimi, araşdırma səfərləri zamanı əldə edilmiş, bir qismi isə yerli sakinlərdən alınaraq həmin muzeyin eksponatları siyahısına əlavə edilib.

2015-ci ilə qədər olan statistikaya əsasən, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcudluğu, zamanın tozlu səhifələrindən gələn, 17.000-dən çox sənət incisini qucaqlayan mədəniyyət ocağını eyhamlaşdırır [5].

Muzey ilk fəaliyyət illərində Milli Azərbaycan Tarixi Muzeyində yerləşirdi. Daha sonra isə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beşinci mərtəbəsinə köçürüldü. Azərbaycan Milli İncəsənət Muzeyi, 1943-cü ildən bəri, Azərbaycan teatr rəssamlığı sənətinin istedadlı nümayəndələrindən biri olan Rüstəm Mustafayevin adını daşımaqdadır [6].

Həmin illər ərzində bir sıra eksponatların, muzeyə qaytarılması prosesi də gedir, eyni zamanda müxtəlif illərdə ölkədən qanunsuz yollarla çıxarılmış bir sıra qiymətli tarixi və mədəni əşyaların da muzeyə qaytarılması istiqamətində ciddi işlər aparılırdı. Bu proses həm yerli mütəxəssislərin səyləri, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində mümkün olurdu. Xüsusilə Avropa ölkələrində aşkarlanan bəzi nadir artefaktların geri alınması, mədəni irsimizin qorunması baxımından mühüm əhəmiyyət daşıyırdı. Qaytarılan eksponatlar arasında qədim əlyazmalar, arxeoloji tapıntılar və sənət əsərləri kimi dəyərli nümunələr yer alırdı.

1948-ci ilin mart ayının 26-sı tarixində, İran vətəndaşı Sadıq Zamani tərəfindən, Azərbaycanın xalça sənətkarlığının XIX əsrin II yarısına aid, ölçüləri 270x390 sm olan və əriş, arğac texnikası ilə tikilən, həmçinin pambıq, xov və həmçinin, yun materiallarından hazırlanmış "İlin fəsilləri" adlı xalça eskponatı, Azərbaycan Milli İncəsənət Muzeyinin fonduna qaytarıldı.



Kompozisiya baxımından zəngin və çoxlaylı səhnə təsvirlərinə malik olan bu xalça, mərkəzdə verilmiş insan fiqurları və müxtəlif hadisələrin təcəssümü ilə diqqəti cəlb edir. Portret kimi təqdim olunan qadın və kişi təsviri ətrafında isə ilin dörd fəsli ayrı-ayrılıqda məişət səhnələri ilə əks olunmuşdur. Hər fəsildə kənd həyatının fərqli anlarını, əkin, biçin, istirahət, bayram və gündəlik zəhmət epizodlar şəklində təqdim edilib ki, bu da xalçaya həm hərəkət, həm də həyatilik gətirir. Əsərdə naturalist simvollar xüsusi diqqət çəkir. Əsərdə insan xislətinin müxtəlif cəhətlərinə şahid olmaq mümkündür. Əsərə diqqətlə baxdıqda, insan təbiətinə xas olan sevgi, ehtiras və mübarizə motivlərinin incə detallar ilə işləndiyini görürük.

Rəng seçimi də məharətlə aparılıb. Təbii və dərin çalarlar, torpaq tonları, yaşıl, mavi və qırmızı rənglər bir-biri ilə harmoniya yaradaraq göz oxşayır. Hər bir rəng estetik və simvolik mahiyyəti ilə seçilir.

Burada yaşıl rəng yazın gəlişi ilə bağlı olan ümid və sevincin başlanğıcını, payızın sarımtıl mənzərəsini, qışın ağ tonlarında isə insanların qarın yağmasına verdiyi fərqli reaksiyaları görürük.

Xalçanın kənarları, zəngin ornamental naxışlarla işlənmişdir. Bu naxışlar təkcə dekorativ funksiyanı yerinə yetirmir, həm də qoruyucu, simvolik bir çərçivə rolunu oynayır. Bitki və heyvan motivləri, eləcə də qədim türk mədəniyyətinə xas olan simvolik elementlər xalçanın ümumi bədii dəyərini artırır.

Burada təbiət ilə sivilizasiya əlaqəsi və insan həyatının fəsillərlə ritmik vəhdət içərisində əks etdirilib. "İlin fəsilləri" xalçası Azərbaycan xalqının ruhunu, əməklə yoğrulmuş həyat tərzini və təbiətlə vəhdətini əks etdirən nadir bir sənət nümunəsi kimi xüsusi əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, bir müddət sonra, daha dəqiq 1951-ci ildə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov, xalq arasında "De Burun sarayı" kimi tanınan məşhur tarixi binanı muzeyin ixtiyarına verdi [7].

Müstəqillik illərindən etibarən, Azərbaycan Milli İncəsənət Muzeyinə olan qayğı artmış və Azərbaycan xalçaçılıq ənənəsi, həm texniki dəqiqliyi, həm də bədii zənginliyi ilə Şərqdə özünəməxsus yer tutmuşdur.

1992-ci ildə muzeyin əhatə dairəsini genişləndirmək məqsədilə, 1888-ci ildə Marrinski qadın gimnaziyası kimi inşa olunmuş, sonralar isə şəhər komitəsinin yerləşdiyi tarixi bina da muzeyin istifadəsinə verildi. Həmin binada muzeyin ikinci korpusu formalaşdırıldı. 2013-cü il iyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə birinci və ikinci korpusları birləşdirən yeni keçid korpusunun rəsmi açılışı həyata keçirildi [8].

Bu illər ərzində Azərbaycanın xalçaçılıq sənətinə xüsusi diqqət ayrılmışdı. Ümumiyyətlə, müstəqillik illərindən etibarən, Azərbaycanda xalçaçılıq sənətinin zənginliyi ilə bağlı olan məsələnin tədqiqinə geniş yer verilmişdi. Əldə edilən məlumatlara görə, məhz bu zənginlik və müxtəliflik, bir çox mütəxəssislərlə yanaşı, almaniyalı sənətşünas Q. Ropun diqqətindən də yayınmamışdır.

O, "Şərq xalçası" əsərinin "Qafqaz xalçaları" bölməsində Qafqaz xalçalarının Asiya xalçalarından daha erkən formalaşdığını vurğulayır və kilimlərin ən gözəl nümunələrinin məhz bu bölgədə yarandığını elmi dəlillərlə əsaslandırır [9].

Azərbaycan Milli İncəsənət Muzeyinə, təkcə xalçaçılıq sənəti deyil, eyni zamanda zinət əşyaları da bağışlanılıb. Bu zinət əşyalarından biri də, e.ə. II minilliyin sonuna – Tunc dövrünə aid edilən, ölçüləri 6x5 sm olan, tunc tökmədən əldə edilən, döymə, cızma üsulları ilə hazırlanan, bilərzik eksponatıdır.

Əsər Rusiya Federasiyasında yaşayan bir həmyerlimiz tərəfindən H.Əliyev Fonduna təqdim edilib. Daha sonra isə H.Əliyev fondu vasitəsilə, 2007-ci il 17 noyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyinə bağışlanmışdır.



Hazırda Azərbaycan Milli İncəsənət Muzeyində qorunan bu eksponat, təkcə tarixi cəhətdən deyil, həm də bədii-estetik görünüşü ilə də diqqət çəkir.

Əsərdəki təsvir elementləri, özünün simvolik harmoniyası ilə diqqət çəkir. Digər tərəfdən, bilərziyin üzərindəki oyma işarələr, zamanın kosmik dünyagörüşünü ifadə edən kodları eyhamlaşdırır.

Məsələn, aypara formasında düzülmüş simvollar Ayın fazalarını xatırladır və zamanın çevrilişini, həm də qadın enerjisini simvolizə edir.

Məsələn, aypara, bir çox mədəniyyət və ənənədə qadın enerjisinin, intuisiya, şəfqət və yaradıcılığın simvolu kimi qəbul olunur [10].

Ay işarəsinin yanında nöqtəvari izlər çox güman ki, günlərin və ya təqvim dövrlərinin sayını göstərir və ay-gün kultunun sintezini yaradır.

Bilərziyin yan kənarlarında yerləşən dairəvi və xətli ornamentlər isə çox ehtimal ki, davamlılığı və qoruyucu dairəni ifadə edir.

Bilərziyin kiçik ölçüsündə bu qədər dolğun və nizama salınmış təsvirlərin yer alması sənətkarın texniki ustalığı ilə yanaşı, semantik dərinliyə malik düşüncə tərzini də ortaya qoyur. Belə ki, Həmin təsvirlərdə qədim azərbaycanlıların kainat haqqında olan təsəvvürlərinə eyham vurulur.

Bu növ təsvirə malik olan bilərziklərin qədim dövrlərdə, magik və qoruyucu xüsusiyyətlərə malik olduğu düşünülürdü. Məsələn, Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Qafqaz Albaniyasında, aypara simvolu geniş yayılmışdır. Arxeoloji qazıntılar nəticəsində Daşkəsən, Şəmkir, Naxçıvan və Şəki bölgələrində aypara və günəş fiqurlu qəbir örtükləri aşkar edilmişdir. Bu, əhalinin ay və günəş kultlarına inandığını və bu simvolların dini rituallarda istifadə olunduğunu göstərir [11].

Qədim inancların sənətə və dekorativ tətbiqi formalarına necə keçdiyi xalçaçılıq nümunələrində də müşahidə olunur. Bu mənada, Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasına daxil edilən Qarabağ xalçaçılıq məktəbinə aid "Əjdaha" motivli unikal xalça da bu baxımdan xüsusi maraq doğurur.



XVII–XIX əsrlərə aid, ölçüləri 174x109 sm olan və simmetrik ilmə, əriş, arğac texnikası ilə tikilən, həmçinin xov və yun materiallarından hazırlanmış bu nadir sənət nümunəsi, İtaliyanın məşhur Sartirano yarmarkasında satışa çıxarılmış və Mədəniyyət Nazirliyi tərəfindən satın alınaraq 11 yanvar 2021-ci ildə vətənə qaytarılmışdır.

Xalçanın simvolikasında əjdaha obrazı ilə yanaşı, qədim türk kosmoqonik təsəvvürlərinə uyğun elementlər də yer alır ki, bu da onun yalnız bədii deyil, həm də mədəni-tarixi əhəmiyyətini artırır. Ümumiyyətlə, Əjdaha motivi türk mifologiyasında təbiətin idarə olunmayan gücünü, qoruyucu və bərəkət gətirən qüvvəni simvolizə edir. Xalçalarda əjdaha motivi, xüsusilə Qarabağ və Naxçıvan xalçaçılıq məktəblərində geniş yayılmışdır [12].

Ümumiyyətlə, Əjdaha motivli xalçalar, Azərbaycanın dekorativ tətbiqi sənət nümunələri çərçivəsində geniş yayılıb. Məsələn, əjdaha motivləri, "Qasımuşağı" və "Çələbi" xalçalarında da rast gəlinir [13].

Onu da xatırladaq ki, əjdaha motivlərinin Azərbaycan xalçaçılığında geniş yayılması səbəblərindən biri də, həmin təsvirlərin metafizik gücləri olduğuna, şər və bədxah ruhları evlərdən qoruduğuna inanılması ilə bağlı idi [14].

Azərbaycanın dekorativ-tətbiqi sənət nümunələrinin tarixi inkişafı, minilliklər boyunca zəngin mədəni irsin formalaşmasına və inkişafına şərait yaradıb. Arxeoloji qazıntılar və tarixi mənbələr göstərir ki, Azərbaycanın dekorativ sənəti eramızdan əvvəlki dövrlərdən başlayaraq müxtəlif mərhələlərdə yüksək inkişaf səviyyəsinə çatmışdır. Xüsusilə, Azərbaycan Milli İncəsənət Muzeyində qorunan eksponatlar, bu sənət sahəsinin yalnız texniki ustalığını deyil, həm də milli mədəniyyətin dərin simvolikasını və insan təbiəti ilə bağlı estetik baxışlarını əks etdirir. Muzeyin zəngin kolleksiyası, xalqımızın qədim dövrlərdən bəri təbiətlə vəhdətdə yaşaması, həyatın ritmləri və kosmik dünyagörüşü ilə bağlı düşüncələrinin sənət əsərlərinə necə təsir etdiyini aydın göstərir.

## Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Azərbaycan Dövlət Rəsm Qalereyası. "DTS" azgalery.az. URL: https://azgallery.az/az/content/33

2. UNESCO "Azərbaycan Respublikasında ənənəvi xalçaçılıq sənəti". URL: https://unesco.az/az/articles/intangible_cultural_heritage/traditional-art-azerbaijani-carpet-weaving-republic-azerbaijan

3. Səfərova Samirə. "Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə..." Bakı Xəbər. – 2015. – 8 oktyabr. – S.12.

4. Зейналов Ибрагим. Breathing Life Back Into Art. The National Art Museum. журнал: Azerbaijan International. 2000. № (8.2). C. 48–50.

*İnternet resursları*

5. Azərbaycan Milli Komitəsi. Beynəlxalq Muzeylər Şurası. "Azərbaycan Milli İncəsənət Muzeyi". URL: https://icomaz.az/az/Az%C9%99rbaycan%20Milli%20%C4%B0nc%C9%99s%C9%99n%C9%99t%20Muzeyi

6. Quliyev Əsəd. "80 yaşlı sənət məbədimiz - Azərbaycan Milli İncəsənət Muzeyi" 525-ci qəzet. - 27 fevral, 2016; Əliyev İqrar. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007. (I bölmə III fəsil

səh.74); İsmayılov Qüdrət, "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri", "Elm" nəşriyyatı, Bakı. 1981.

7. Гумбатова Т. Де-Буровский дворец. URL: https://proza.ru/2012/03/23/2166.
8. Президент Азербайджанской Республики Ильхам Алиев. President.az.

9. "Azərbaycanda xalça sənətkarlığı". azerbaijan.az. URL: https://azerbaijan.az/related-information/49
10. "Qadın enerjisi nədir? – ARAŞDIRMA" sia.az. URL: https://sia.az/az/news/social/1087307.html
11. "Qədimdən gələn zəngin ənənələr günümüzədək qorunub saxlanır. xalqcebhesi.az. URL: https://www.xalqcebhesi.az/news/project/15708.html
12. Haçıyeva Sara. Naxçıvan xalçaları üzərindəki motivlər. Naxçıvan İnformasiya Agentliyi. URL: https://nuhcixan.az/news/cemiyyet/27842-naxcivan-xalcalari-uzerindeki-motivler
13. Reznikova Valentina. QARABAĞIN XƏZİNƏSİ. Xalça Muzeyində Parisin Luvr muzeyindən gətirilmiş qiymətli Azərbaycan xalçaları nümayiş etdirilir. Regionplus. URL: https://regionplus.az/az/articles/view/6876
14. Azərbaycan mifologiya və folklor varlıqlarının siyahısı. URL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_mifologiya_v%C9%99_folklor_varl%C4%B1qlar%C4%B1n%C4%B1n_siyah%C4%B1s%C4%B1

**Amanova Ayshan Kamal**

**Historical Artifacts Exhibited at the Azerbaijan National Museum of Art**

**Summary:** The Azerbaijan National Museum of Art is one of the most important cultural institutions that preserves and exhibits the country's rich cultural heritage. With its extensive collection covering various periods and genres of Azerbaijani art, the museum significantly contributes to the formation, preservation, and promotion of national culture. The artifacts preserved here not only possess aesthetic value but also reflect the historical, cultural, and social development of the country. The museum serves as a vital platform for promoting and introducing Azerbaijani art both nationally and internationally.

For this reason, many historical artifacts are preserved specifically at the National Museum of Art, especially examples of textiles, carpets, and jewelry, which constitute an invaluable part of the country's tangible cultural heritage

and serve as a vivid indicator of our cultural legacy. Through these exhibits, the artistic traditions, technical mastery, and aesthetic perspectives of the past are conveyed to the present. Each item reflects the religious, social, and cultural life of its era, as well as regional characteristics. The preservation and study of historical artifacts play an important role in strengthening national identity and determining the place of Azerbaijani art within world cultures. These samples are valuable resources for both science and education.

**Key words:** Azerbaijan National Museum of Art, historical artifacts, exhibited historical items, decorative and applied art samples, tangible cultural heritage, textile examples, carpet art, jewelry works, Azerbaijani art, cultural preservation, ethnographic samples, museum collection, national costume

**Аманова Айшен Камал гызы**

## Исторические артефакты, экспонируемые в национальном музее искусств Азербайджана

**Резюме:** Национальный музей искусств Азербайджана является одним из важнейших культурных учреждений, сохраняющих и демонстрирующих богатое культурное наследие страны. Обладая обширной коллекцией, охватывающей различные периоды и жанры азербайджанского искусства, музей вносит значительный вклад в формирование, сохранение и популяризацию национальной культуры. Сохраняемые здесь артефакты не только обладают эстетической ценностью, но и отражают историческое, культурное и социальное развитие страны. Музей служит важной платформой для продвижения и представления азербайджанского искусства как на национальном, так и на международном уровнях.

По этой причине многие исторические артефакты, особенно образцы текстиля, ковроткачества и ювелирного искусства, которые составляют бесценную часть материального культурного наследия страны и являются ярким показателем нашего культурного достояния, сохраняются именно в Национальном музее искусств. Эти экспонаты позволяют перенести в наши дни ремесленные традиции, техническое мастерство и эстетические представления прошлого. Каждый предмет отражает религиозную, социальную и культурную жизнь своей эпохи, а также региональные особенности.

Сохранение и изучение исторических артефактов играет важную роль в укреплении национальной идентичности и определении места азербайджанского искусства в мировых культурах. Эти образцы являются ценными ресурсами как для науки, так и для образования.

**Ключевые слова:** Национальный музей искусств Азербайджана, исторические артефакты, экспонируемые исторические предметы, образцы декоративно-прикладного искусства, материальное культурное наследие, текстильные изделия, ковровое искусство, ювелирные изделия, азербайджанское искусство, сохранение культуры, этнографические образцы, музейная коллекция, национальный костюм.

*Məqalənin redaksiyaya daxilolma tarixi: 27.05.2025*

*Rəyçilər: ADMİU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru Vasif Adilov; Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nasir Quluzadə*